**Azərbaycan Respublikası**

**Siyəzən Rayon İcra Hakimiyyəti başçısının**

**S Ə R Ə N C A M I**

№ 313 12 noyabr 2021-ci il

**Siyəzən şəhərində şəhid adının əbədiləşdirilməsi üçün şəhidlərin adının verilməsi nəzərdə tutulan küçə və meydanlarının müəyyənləşdirilməsi məqsədilə komissiya yaradılması haqqında**

1. Vətən müharibəsi şəhidlərinin adlarının əbədiləşdirilməsi üçün şəhid adının verilməsi nəzərdə tutulan Siyəzən şəhərinin küçə və meydanlarının müəyyənləşdirilməsi məqsədilə aşağıdakı tərkibdə komissiya yaradılsın.

**Komissiyanın sədri**

Aqşin Ağayev - Siyəzən Rayon İcra Hakimiyyəti başçısının müavini-Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin müdiri

**Komissiyanın üzvləri:**

Təhminə Bəxtiyarova -Siyəzən Rayon İcra Hakimiyyəti başçısının müavini-İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri

Səxavət Novruzov -Siyəzən Rayon İcra Hakimiyyəti başçısı aparatının Memarlıq və tikinti şöbəsinin müdiri-baş memar

Azər Babayev -Siyəzən bələdiyyəsinin sədri

Vüsal İbrahimli - Siyəzən Rayon İcra Hakimiyyəti başçının Siyəzən şəhər inzibati ərazi dairəsi üzrə nümayəndəsi

Qəzənfər Nəcəfov - Ağsaqqallar Şurasının sədri

Nəbi Əliyev -Qarabağ Müharibəsi Əlilləri, Veteranları və Şəhid Ailələri İctimai Birliyinin Siyəzən rayon şöbəsinin sədri

2. Komissiyaya tapşırılsın ki, şəhid ailələrinin üzvləri ilə birlikdə Siyəzən şəhərində uyğun küçələri müəyyənləşdirərək təkliflər versin.

3. Siyəzən Rayon İcra Hakimiyyəti başçısının Siyəzən şəhər inzibati ərazi dairəsi üzrə nümayəndəsinə tapşırılsın ki, küçələrin ad göstəricilərinin hazırlanması və müvafiq olaraq yerləşdirilməsini təmin etsin.

4. Kommunal Müəssisələri Kombinatının rəhbərliyinə tapşırılsın ki, həmin küçələrin təmiz və abad saxlanılmasını təmin etsin.

5. Sərəncamın icrasına nəzarət Siyəzən Rayon İcra Hakimiyyəti başçısının müavini-Sosial-iqtisadi inkişafin təhlili və proqnozlaşdırılması şöbəsinin müdiri Aqşin Ağayevə tapşırılsın.

**Novruz Novruzov**